**Təsdiq edilmişdir:**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş
nazirinin müavini Samir Şərifov

02.09.2026-cı il

# Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesin yerləşdiyi yer (tikintiyə icazələrin verilməsi)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üzrə Yol Xəritəsi

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Şəhərsalma və ətraf mühitlə bağlı icazələrin alınması sahəsində qaydaların keyfiyyəti** | | | | | |
| **1. 1. Tikinti sahəsində qaydaların və ətraf mühitlə bağlı icazələrə dair tənzimləyici norma və qanunvericiliyin təkmilləşdirilməsi** | | | | | |
| 1. 1. 1 | Tikinti sahəsində qaydaların və ətraf mühitlə bağlı icazələrə dair tənzimləyici norma və qanunvericiliyin təkmilləşdirilməsi barədə sahibkarların və | Tənzimləyici norma və qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı görülmüş işlər barədə media, rəsmi internet resursları və digər kommunikasiya kanalları vasitəsilə məlumatlandırma tədbirlərinin həyata keçirilməsi. | Mütəmadi | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Əbdülrəhim Dadaşov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ictimaiyyətin məlumatlandırılması | | | | |
| 1. 1. 2 | Ərazi planlaşdırılmasının bütün mərhələləri və məzmunu,eləcə də əhali üçün mühüm tikinti niyyətləri barədə ictimaiyyətə ətraflı məlumat verilməsi işinin Qaydalarının təsdiq edilməsi | Ərazi planlaşdırılması ilə bağlı etiraz və təkliflərə baxılması prosedurunun elektronlaşdırılması və sorğu əsasında həmin sənədlərin surətlərinin əldə edilməsi funksiyasının yaradılması. | 31. 12. 2026 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, aidiyyəti yerli icra hakimiyyəti orqanları, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Sümbül Turabova<br>işçi qrupun aidiyyəti üzvləri |
| 1. 1. 3 | Ətraf mühitin mühafizəsi ilə bağlı məsələlərin həlli mexanizminin təkmilləşdirilməsi | 1. Tikinti işləri ilə əlaqədar operativliyin təmin olunması məqsədilə ekoloji icazələrin “vahid rəy” prinsipi ilə rəsmiləşdirilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsi; | 31. 12. 2026 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. İnşaat işləri sonrası yaşıllaşdırma qaydalarına riayət olunmasına nəzarətin təmin olunması üçün qanunvericiliyə əlavələrin edilməsi; | 31. 12. 2026 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Mübariz Əliyev<br>Sümbül Turabova |
| | | 3. Tikinti işləri ilə əlaqədar yaşıllıqların qanunsuz götürülməsi hallarında təbiətə dəymiş zərərin "yeni yaşıllıqların salınması" üzrə kompensasiya olunmasına dair qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması; | 31. 12. 2026 | | |
| | | 4. Abşeron yarımadasında inert tullantı poliqonunun yaradılması üçün qanunvericiliyə təkliflərin verilməsi. | 31. 12. 2026 | | |
| **2. Tikintiyə icazələrin verilməsi sahəsində dövlət xidmətlərinin keyfiyyəti və məlumatların şəffaflığı** | | | | | |
| **2. 1. Onlayn dövlət xidmətlərinin mövcudluğu və etibarlılığı** | | | | | |
| 2. 1. 1 | Onlayn dövlət xidmətlərinin mövcudluğu və etibarlılığı barədə sahibkarların və ictimaiyyətin məlumatlandırılması | Onlayn dövlət xidmətlərinin ilə bağlı görülmüş işlər barədə media, rəsmi internet resursları və digər kommunikasiya kanalları vasitəsilə məlumatlandırma tədbirlərinin həyata keçirilməsi. | Mütəmadi | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Əbdülrəhim Dadaşov |

<table>
<tr><td rowspan="4">2. 1. 2</td><td rowspan="4">Müvafiq sahədə onlayn dövlət xidmətlərinin mövcudluğu və etibarlılığı, habelə verilmiş icazələrin sayına dair rəsmi, yenilənmiş və ictimaiyyət üçün açıq onlayn statistikanın mövcudluğu</td><td>1. Aşağıdakı bəndlərdə əks olunmuş tədbirlər üzrə qiymətləndirmə aparılaraq maliyyələşmə ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması:</td><td rowspan="4">31. 12. 2026</td><td rowspan="4">Dövlət Şəhərsalma və Arxitektura Komitəsi</td><td rowspan="4">Məmməd Əli Məmmədov</td></tr>
<tr><td>1.1. Elektron Tikinti Portalının təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması</td></tr>
<tr><td>1.2. Elektron Tikinti Portalında Naxçıvan Muxtar Respublikası üzrə icazə icraatı və məlumatlandırma icraatı modulunun yaradılması</td></tr>
<tr><td>1.3. Elektron Tikinti Portalında torpaqayırma modulu ilə bağlı müvafiq inteqrasiyanın təmin edilməsi</td></tr>
<tr><td>2. 1. 3</td><td>Peşəkarlıq sertifikatı almış şəxslərin peşəkarlıq reyestrinin yaradılması.</td><td>Peşəkarlıq sertifikatı almış şəxslərə dair məlumatların müvafiq dövlət orqanının rəsmi internet səhifəsində əlçatanlığının təmin edilməsi</td><td>31.12.2026</td><td>Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi</td><td>Elbəy Bababəyov<br>Sümbül Turabova</td></tr>
<tr><td colspan="6">3. Tikinti və istismar ilə bağlı icazələrin əldə olunmasının səmərəliliyi</td></tr>
<tr><td>3. 1. 1</td><td>Tikinti məqsədləri üçün icazələrin əldə edilməsinin səmərəliliyi</td><td>1. Elektron Tikinti Portalında canlı çat və elektron bildiriş funksiyalarının tətbiqi ilə operativ kommunikasiyanın təmin olunması məqsədilə texniki və institusional imkanların qiymətləndirilməsi,maliyyələşmə ehtiyaclarının müəyyən olunması və bu əsasda təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td><td>31. 12. 2026</td><td>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi)</td><td>Məmməd Əli Məmmədov</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Tikintiyə icazə verilməsi ilə bağlı qəbul edilən qərarlardan şikayətlərin elektron Portal vasitəsilə təqdim olunması mexanizminin yaradılması, o cümlədən şikayətlərin baxılması prosedurlarının optimallaşdırılması üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 31. 12. 2026 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Məmməd Əli Məmmədov |
| 3. 1. 2 | Kommunal infrastruktur işlərinin birgə planlaşdırılması və “bir dəfə qazma” siyasətinin tətbiqi | Kommunal infrastruktur üzrə tikinti və qazıntı işlərinin birgə planlaşdırılması və “bir dəfə qazma” siyasətinin tətbiqi məqsədilə İnfrastruktur İnformasiya Sisteminin yaradılması və aidiyyəti qurumlar arasında koordinasiya mexanizminin təmin edilməsi | 31. 12. 2026 | “Azərişıq” ASC, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), infrastuktur üzrə aidiyyəti dövlət qurumları | Elsevər Rüstəmli<br>işçi qrupun aidiyyəti üzvləri |